# SÜMÜYƏ DAYANMIŞ BIÇAQ



*Salatın ƏHMƏDLİ,*
*dosent*

Ermənistan - Azərbaycan sərhəddində gərginlik davam edirdi. Axşamlar uşaqlarla çayxanaya yığışırdıq. Aprel döyüşlərindən sonra heç rahatlıq tapmırdıq. İçimizi nifrət elə qarsıyırdı ki, bəzən sözümüz öz aramızda ixtilafa çevrilirdi, əsəblərimizi cilovlaya bilmirdik. Bir qrup hökumətin yeritdiyi siyasəti dəstəkləyir, sülh yoluyla torpaqlarımızın alınacağını, bir az səbrli olmağımızı bildirəndə qan düşürdü. Dəli Abbas həmişə sakit, təmkinli Sahillə barışmırdı:

- Ə, nə ATƏT-MATƏT. Öz gücümüzlə o torpağı geri aldıq, aldıq, almadıq, can da düşdüsə ha, arvad-uşaq belə tüpürəcək üzümüzə.

- Onsuz da tüpürürlər də.

- Niyə tüpürürlər, bilirsənmi? Bax, oturmuşuq burda, evdəkilər elə bilir ki, yığılıb burda nərd atırıq, pivə içirik. Evə qayıdan kimi üzümə deyirlər ki, erməni bizim evimizdə oturub kef eləyir, siz çayxanalarda, pivəxanalarda küllənirsiniz.

- Haqlıdırlar, haqq deyirlər, vallah, haqq deyirlər. Biri mən, bax, axşam dönürəm evə, üst-başımdan ancaq siqaret, bir də sizinlə içdiyim o bir bakal pivə iyi gəlir. Bekarçılıq can alır. İş yox, güc yox. Torpaq qalıb ağzı göyə, düşmənin ayağı altında. Mən də əlim cibimdə sallana-sallana gəzirəm, dövlətin verdiyi o haram "yardıma" gözümü dikmişəm. Hər ayın axırını gözləyirəm ki, o yardımı itin qabağına atan kimi qabağımıza atacaqlar...

Dəli Abbas söyməyə başlayırdı. Hər ağzından çıxan söyüşün də nə sərhəddi vardı, nə abrı...

Bəzən də görürdün ki, Dəli Abbas durdu, çıxdı getdi... günlərlə çayxanaya gəlmirdi...

General Polad Həşimov öldürülən gün Dəli Abbas gəldi, nə gəldi... onu içəri girən gördük, üstümüzə cumdu. Hansı ki, biz ATƏT-lə bağlı fikrlərimizdə onunla həmrəy deyildik. Əlini çırpdı stolun üstünə:

- Hə, necəsiniz? ATƏT dediyiniz o gədalar hanı? Sənin o boyda generalın əmrə tabe olmayıb, düşmənin içinə girib, ona kim olduğumuzu göstərib.

Mahmud kədərlə:

- Ona görə də öldürdülər.

- Onu özümüzdən olanlar eləyib... - Abbas çığırdı. - Əmrə tabe olmayıb, düşmənin içinə girib, tələb eləyib, müharibəni başlayaq, düşməni yurddan çıxaraq.

- Təkbaşına işin axırı da belə oldu. O bizə çox lazımıydı. Onun kimi hərbçilər 40 ildən bir yetişir.

- Dəyərini bilmədik... özümüz bilmədik. O girmişdi düşmənin içinə, yarırdı cəbhəni, niyə arxasınca getmədilər...

- Günahsız yerə uşaqlarımız məhv olacaqdı.

- Ə, məni dəli eləməyin, qurban vermədik? Hə, vermədik? Polad bir ordunu arxasınca apara biləcək hörmət və izzət sahibiydi, igidiydi, bizim kimi ana balağı altında gizlənən deyildi.

- Abbas, dəliliyinə salma. Bas körüyü. - İlqar yerində fısıldadı. - Başa düşürük, torpaq, yurd itirmisən...

- Mən təkcə torpaq, yurd itirməmişəm. Mən kişilik qürurumu itirmişəm, evdə böyüklüyümü, hörmətimi itirmişəm. Mən hər şeyimi itirmişəm. Sənə nə var? Oturmusan yanımızda...

- Bura mənim vətənimdir, oralar da mənim vətənimin bir parçasıdır. Evim orda qurulmuş olmaya bilər. Amma içimdə bütöv vətənin evi var. Onun bir kərpici söküləndə mənim də evim başıma uçur. Qardaşımı aprel döyüşlərində mən qurban verdim.

-Bir bax, gör, Qarabağda doğulmasa da, o torpaqlarda bizim doğmalarımız əlisilahlı düşmənin qabağındadır. - Akif incik-incik Abbasa baxdı.

Abbas özündə deyildi:

- Onda nəyi gözləyirsən? Hə? Sonlarını görmürsən? Hər qapıda bir dul var, hər qapıda bir papaqsız kişilər...

- Ali Baş Komandan...

Abbas dəli kimi çığırdı:

- Yüz nəfər yığışıb, gedib o Prezident aparatının qabağında dursa, səsimizi ona çatdırsa, o da içimizdəki bu nifrətin tüğyan etdiyini görsə, bilər ki, bıçaq sümüyə dirənib...

- Abbas bunu doğru deyir. Prezident aparatının qabağına gedən kimdisə şəxsi ehtiyacları, şikayətləri üçün gedənlərdir...

- 2013-cü ildən xüsusi təyinatda xidmət etmişəm. Bizi tabor komandiri, baş çavuşumuz mükəmməl yetişdirmişdi. Həm mənəvi, həm də psixi cəhətdən çox möhkəm hazırlanmışdıq. Elə bir dəstəylə, vallah, Şuşanı belə alardıq. İçimizdə o hiss... - Abdulla başını buladı.

- Aprel hadisələrində Tərtərə xalamgilə getmişdim. Aləm bir-birinə dəymişdi. Orda mənimlə hərbi xidmətdə olan əsgər yoldaşlarım vardı, bir yerə yığışmışdıq. Qərara gəldik ki, yüksək rütbəli bir hərbi komandirə yaxınlaşaq, bir qrupda birləşib, müharibənin bu ağır günlərində nə lazımsa, yerinə yetirək.

Abbas hirslə:

- Noldu bəs? Axırını deyirəm.

- Nolacaq? Get bax, nə qədər oğullarımızı mənasız yerə tutub dama basdılar, işgəncələrə məruz qoydular, neçəsi özünə qəsd elədi. Hələ də istintaq davam edir. Elə bil iyə düşüblər, nə qədər içində vətən sevgisi güclü olanlar var, bir-bir çəkib istintaqa aparırlar. Az keçmir axırına çıxırlar.

- Birliyimiz yoxdu, ona görə...

132

- Abbas, sən də bilirsən general Polad Həşimov bizim üçün kim idi?

Birdən-birə Dəli Abbas çökdü stulların birinə. Başını stolun üstünə qoyduo16

, hönkürdü...

Elə bir səhnə yarandı ki, hamımız onun başına yığıldıq. Nə deməyə sözümüz vardı, nə də ona yaxınlaşıb təskinlik verməyə cəsarətimiz.

Samir bu səssizliyi pozdu:

- Abbas, Samir ölsün, yalan demirəm, bir partizan dəstəsi quraq. Bizim bu Tovuz bölgəsi onların burnunun dibindədir. Qan qusduraq da onlara.

Dəli Abbas başını qaldırıb ona baxdı.

- Sözündən dönən?

- Sözündən dönən kişi deyil.

Abdulla tərs-tərs qardaşı Samirə baxdı:

- Bircə bu qalmışdı.

- Biz bu sərhəd bölgələrdən onların günün göy əski- yə bürüməsək, onlar tərpənən deyil.

Abdulla üzünə qəribə bir ifadə verdi:

- Onu da doğru deyirsiniz. Axşamlar bura yığılmaqdansa, yaxşı hərbi təlimlər keçməliyik. Yaxşı bir bölük yaratmalıyıq.

- Kim bizə o təlimləri keçəcək?

- Təlim lazım deyil. Aramızda hərbi xidmətdə olmayan yoxdu.

- Yaxşı təlim görmək üçün XT-lı Bərgüşad əmidən yararlanmaq olar.

- Bərgüşad əmi bizi dinləməz.

Abdulla təmkinlə:

- Dinləyər. Ən azından ona görə dinləyər ki, istefaya çıxandan bəri yerində qərar tuta bilmir. Gün gözləyir...

Abbas yerindən qalxdı:

- Mən gedib onu bura gətirəcəyəm.

Abdulla gülümsədi:

- Darqursaq olma. Bir az səbrli ol. Sabah onunla danışacağam.

- Hə, Abdulla yaxşıdır, onu dinləyər.

- Abdulla, nə yaxşı onunla dostluq edə bilirsən. Bərgüşad da dəli-dolu adamdı.

Abdulla səmimi baxışlarla Abbasa baxdı:

- Dəlilərlə mənimki yaxşı tutur.

Abbas Abdullaya yaxınlaşdı:

- Sənə inanıram. Sabah onu burada gözləyirik, - deyib qapıdan çıxdı.

* * *

Bərgüşad sabahı gün axşam heç zaman sevmədiyi, axşamlar ancaq, özünün dediyi kimi, "kənd avaralarının yığıldığı çayxanaya girəndə üzünü turşutdu.

- Bu zibili az çəkin də. Adam burada boğulur, bayıra çıxın, - deyib, bir stul götürüb qapıdan çıxdı.

Uşaqlar da buna bənd imiş kimi hərəsi bir stul götürüb bayıra çıxanda çayxanaçı Məhərrəm dəmir stulların çaqqıltısından zala boylandı. Az keçmədi, iki stolu da çəkib bayıra atdılar. Çayçı Məhərrəm heç zaman onun çayxanasına təşrif buyurmayan, aprel döyüşlərinin qəhrəmanlarından biri olan Bərgüşadı görəndə dili tutuldu:

- Bu nə yaxşı gəlib bura?

Nə fikirləşdisə mətbəxə döndü. Yaxşı bir çay dəmlədi, onun üçün də bir armudu stəkan çıxarıb podnosa qoydu. Yanına da yaxşı noğul, şəkər, ləbləbi qoydu.

Stəkanları podnosa yığdıqca dodağının altında "mənim çayxanama avara yığnağı deyirdi. Baxsın görsün burda necə uşaqlar var. Bir özündən deyəndə beş də onlardan desin".

Çayçı Məhərrəm əvvəlcə samovarı aparıb həyətdə, uşaqlar başına yığıldığı stolların yanındakı daşın üstünə qoydu. Gözaltı Bərgüşada baxdı, uşaqlar onu elə əhatəyə almışdı ki, samovarın cızıltısnı belə sezmədilər.

Bərgüşad isə bunu görmüşdü. Çayçı Məhərrəm siniylə stola yaxınlaşanda dilləndi:

- İmkan verin bizim Məhərrəmə.

"Bizim Məhərrəm" sözü çayçı Məhərrəmin ürəyinə yağ kimi yayıldı...

- Xoş gəlmisən, Bərgüşad.

- Xoş günlü olaq.

- Amin, amin Allah.

Uşaqlardan biri cəld çayçı Məhərrəmə kömək etmək üçün samovara yaxınlaşdı.

...Az keçmədi aləm qarışdı. Dəli Abbas yalan oldu, Bərgüşad gerçək. Artıq plan quruldu. Çayçı Məhərrəmin məkanı oldu "hərbi komissarlıq". Çayçı Məhərrəm də onlara qoşuldu.

Uşaqlar dedikləri kimi, Telmangilin bağı onların tə- lim mərkəzi oldu. Artıq axşamlar, bəzən günlərlə də uşaqlarının boş vaxt tapan kimi yoxa çıxmasından evin başıpapaqlıları da narahat olmağa başladı. "Hərbi sirri"ni evə belə sızdırmayan oğullardan gileylənən atalar Məhərrəmin çayxanasına cumdular. Günlərlə çayxananın qapısına vurulan qıfıldan da heç nə anlamadılar.

Anladıqları bircə bu olurdu ki, bu uşaqlar geri dönəndə çimməyə qaçırdılar.

Xüsusi Təyinatlılardan olan Bərgüşad yaxşı bir hərbi qrup yaradıb, adını da "Canavar bölüyü" qoydu. Abdul- layla Elmir xüsusilə çevik və təlimlərdə daha aktiv idi. Bərgüşad onları yetişdirirdi...

Düşmənin cəbhədə gərginlik yaratmaq istədiyi ilə bağlı məlumatları mətbuatdan bilən Bərgüşad harasa gedib gəlirdi.

Müharibə başlayanda yaratdığı "könüllü xüsusi təyinatlı" dəstəylə birlikdə mükəmməl hərbə yiyələnmiş kəndin uşaqlarını da götürüb hərbi komissarlığa getdi.

*(Davamı 5-ci səhifədə)*

*(Əvvəli 4-cü səhifədə)*

Bərgüşad düşmənin içərilərinə belə getməyə, lazım gələrsə hər şeyə hazır bir bölük yetişdirdiyini, onların adi sıravi əsgər olmadığını, bütün əməliyyatlara hazır olduqlarını bildirəndə Hərbi komissar xəfifcə gülümsədi:

- Bunların yanında Bərgüşad kimi bir canavar varsa, təbii baxırıq. Məndən xəbər gözləyin.

Müharibənin ikinci günü Bərgüşad onlara hərbi komissarlığa çağırıldıqlarını evdə bildirməyi tapşırdı:

- Hər halda ailəniz bilməlidir.

- Mən evdən çıxanda gizlicə çıxacağam. - Abbas Bərgüşada baxdı.

- Niyə?

- Anam... məndən də dəlidir, deyir sənin kimilərini əsgərliyə aparmazlar.

Bərgüşad güldü:

- Onda niyə gizlədirsən? Elə düşünəcək ki, dəlisən, geri qayıdacaqsan. Hərbi komissarlığa çağırılanlar hamsı aparılmır ki...

# SÜMÜYƏ DAYANMIŞ BIÇAQ

- Aparsalar, onda Hərbi komissara göz verib işıq verməz.

Uşaqlar gülüşdü:

- Səməyə?

- Hə, komandir. Deyəcək ki, onun başı çatmırdı, biləbilə ki, dəlidir, niyə göndərmisiniz?

Bərgüşad mızıldandı:

- İşimiz var da bu Dəli Səməyə ilə.

- Yaxşı, necə istərsən?! Onsuz da dədən yetim Bəxtiyar bilir.

Abbasın gözləri bərəldi:

- Dədəm bilir?

- Bilir, bilir.

- Kim deyib ona?

- Heç kim. Səni pusub, hara getdiyini öyrənib. - Bərgüşad güldü.

Sa hib də güldü:

- Qorxub yəqin dəlisinin əlindən bir xata çıxar...

- Xalqımın belə dəlilərinə can qurban!

Bərgüşadın sözündən hamı mütəəssir oldu.

***

Bir gün sonra Bərgüşad on səkkiz əsgəriylə birlikdə cəbhədə idi. Hərbi hissədə onunla görüşən komandir zamanında ad çıxarmış cəsur XT-lı Bərgüşadla üz-üzə oturmuşdu.

- Sizi kəşfiyyat bölmələrinin içində yerləşdirə bilərik.

- Biz buna da hazırıq. Biz, inşallah, nə vaxt bu əməliyyata qoşuluruq?

- Sabah xüsusi təlim keçiriləcək, hərbi imkanlarınız yoxlanacaq, təlimata uyğun hərəkət edəcəyik.

- Biz xüsusi təyinatlılarda yetərincə hərbi sirləri öyrənmişik.

- Anladım. Amma siz könüllülərsiniz. Yuxarıdan təlimat gəlib, yoxlanışdan keçəcəksiniz.

Sübh tezdən hərbi təlimlərə başladıq. Onların mükəmməlliyi ürəklərincə oldu. Təlimdən sonra qərar verildi.

- Siz kəşfiyyata gedənlərin içində yaralanmışların, şəhid olanların əvəzinə gedəcəksiniz.

Bərgüşadı baxmayaraq ki, yaşa dolmuşdu, özünü "canavar bölüyü" ilə, xüsusi təyinatlılarda xidmət etmiş əsgər dostlarıyla birlikdə əməliyyata qoşdular.

Tərtər Ağdərə istiqamətində kəşfiyyat bölməsində yer aldılar. Gecə ikən lazım olan əşyalarla təmin olunaraq əmri gözləyirdilər. Yuxarıdakı yüksəklikdən düşən qrupun yerinə onlar getməli olduqlarını bilsələr də, gözləyirdilər. Bərgüşad Kəşfiyyat idarəsinin rəisinin əmrini gözləyirdi.

Nəhayət, iki qrupa bölündülər. Onların bir hissəsi Tərtər, yarısı Suqovuşan istiqamətində əməliyyata başladı. Bərgüşad onların hər birini sinəsinə basdı:

- İnşallah, gözəl sorağınızı eşidəcəm. Sizə güvənirəm...

Dəstə əmrə əsasən bölmələrə ayrılaraq yola düşəndə Bərgüşad Dəli Abbasın digər dəstədə yer aldığını görüb ona yaxınlaşdı:

- Dəli Qoçum. Nifrətini düşmənə yağdıranda dəli kimi davranma. Səbrlə, səbrlə hərəkət elə.

- Oldu, komandir.

* * *

Deyilən əraziyə çatanda hər şey bir-birinə qarışdı, ağır döyüşlər gedirdi. Tankların gurultusu, minamyotların vıyıltısı Dəli Abbasın bəlkə də gözləmədiyi bir səhnə idi. Düşmən və dost seçilə bilinməyən bir meydanda Dəli Abbas onları elə geyimindən tanıdı. Dəli könlü yerə sərilmiş şəhidlərimizi görəndə vulkan kimi püskürdü. Xeyli düşmən meyidləri vardı. İki döyüşçümüz minamyota tuş gəlmişdi, yanırdılar, Dəli Abbas köməyə atıldı, iki yanan əsgəri yerə yıxıb torpaqla söndürməyə çalışanda Samir də ona köməyə yetişdi...

Yaxınlıqda bir əsgər isə yanğının şiddətindən şəhid olmuşdu.

Abbas da, döyüş yoldaşları da qorxmadan düşmən üzərinə gedirdi. Dəli Abbasın gözünün önündə xüsusi təyinatlılardan biri silahını ayaq üstə ata-ata düşmənin üstünə gedirdi. Onu vurdular, çökdü, amma yıxılmadı, səc- dədə duran kimi düşmən güllələrinin altında heykəl kimi dayanmışdı. Bəlkə də ermənilər ona onlarla güllə atdı, amma yıxılmadı. Onun şəhadətə qovuşma anı Abbasın yaddaşına əbədilik həkk olundu. Oğullarımız mərdliklə döyüşürdü.

Qanlı döyüş əsgərlərimizin qələbəsiylə bitdi. Düşməndən azad edilmiş ərazilərdə qoyub qaçdıqları hərbi texnikayla yanaşı cəsədləri də vardı... Dəli Abbas sanki yuxudaydı. İndi anlayırdı ki, Bərgüşaddan nə qədər dəyərli hərbi təlimlər alıblar. Bu dəstəyə düşmüş "canavar bölüyü"nün beş əsgərini sağ-salamat görəndə dərindən nəfəs aldı.

* * *

Dəli Abbasın olduğu bölməyə 530 deyilən yüksəkliyi almaq üçün əmr gəldi, sonra Suqovuşan istiqamə tində hərəkət etməli idilər. Dəstəyə yeni qoşulanların da özləri kimi ürəkli olması onu sevindirirdi. Onlar arabir bir- birini qucaqlayıb "səndən nə gözəl şəhid iyi gəlir," - deyəndə Dəli Abbas özündən çıxırdı:

- Nə şəhid? Mən düşməndən qisasımızı almamış ölmək fikrində deyiləm.

- Sən də doğru deyirsən. Bu qələbənin sonuna kimi yaşamalıyıq, döyüşməliyik...

- Ən azından şəhid olmuş silahdaşlarımızın qanını yerdə qoymamalıyıq, onlardan intiqamımızı almalıyıq.

- Şəhid olanda da bilirik nəyin uğrunda şəhid oluruq.

* * *

Abbasgilin dəstəsinə dayanmaq əmri verildi. Maşınlardan düşüb xeyli yolu da piyada getdilər. Dəstələrə ayrılmaq zamanı gəldi. XT-lılar orduyla döyüşə getmirdi, onlar sadə, qruplarla üstlərində olan hərbi ləvazimatla, bir də yüksək döyüş bacarığıyla irəliləyirdi, vuruşurdu.

Dəli Abbasın qrupu Suqovuşana doğru irəliləyirdi. Talış kəndi yaxınlığında maşınlardan tökülən, ordan o tərəfə maşın getmədiyini bilən hərbçilər komandirin əmriylə iki qrupa bölünüb ağaclıqların arasıyla, aralı məsafədə elə ehtiyatla yerimədiyi ki, yüksəklikdəki ermənilərin diqqətini çəkməsinlər.

Qrup hərəkət etdikcə bəzi postların artıq alındığını, döyüş dostlarımızın o əraziyə nəzarət etdiyini gördükcə Dəli Abbasın ürəyi dağa dönürdü. Postlarda möhkəmlənmiş ordumuzun hərbi qüvvələri əfsanəvi igidlikləri ilə tanınmış XT-lıları geyimlərindən tanıyırdılar. Onları gördükcə daha da ürəklənirdilər. Artıq hər kəs bilirdi ki, güclü, qüvvətli xüsusi təyinatlılar onların yanındadı, daha da ürəklənirdilər.

Həmin postların yanından keçib əmrə əsasən xeyli piyada irəliləyən dəstə yüksəkliyin yaxınlığından axan, ətrafı kolluqlar basmış, balaca çayın yanında dayanıb əl- üzünü yudular və yollarına davam etdilər. Qapqara buludlar göyün üzünü tutmuşdu. Yağış yağırdı, paltarları islanmışdı, üstlərindəki yük ağır olsa da yeriyirdilər. Nəhayət, komandir bir daşlıqda dayanmaq əmri verdi. On dəqiqə keçməmiş radist komandirə yaxınlaşdı.

- Komandir, xəbər verildi ki, sizin durduğunuz yer düşmən tərəfindən ağır artilleriyalarla vurulacaq.

Komandir əmr verdi:

- Gedirik.

Dəstə qalxdı.

Beş-on dəqiqəyə oranı tərk etdilər. Radist onu da xəbər vermişdi ki, artilleriya ilə hücum olana kimi qrup o yüksəklikdə olmalıdır.

Gərgin, ağır bir yol idi. Saatlarca dərələrlə, təpələrlə yeriyirdilər. Düşmən onları görməsin deyə fanardan da istifadə edə bilmirdilər. Abbasın olduğu qrupun vəzifəsi o posta qalxmaq, arxadan gələn ordunun təhlükəsizliyini təmin etmək idi.

Dağın yüksəkliyinə doğru xeyli qalxmışdılar, Samir yorulduğundan dayandı:

- Siz qalxın, mənim taqətim tükənib, - dedi.

- Onda yavaş-yavaş da olsa qalx, biz irəliləməliyik - Abbas nigarançılıqla ona baxdı.

-Narahat olma, gəlirəm.

Sübh çağıydı. Artıq yüksəkliyə beş-on metr qalmışdı. Düşmən onları görməsin deyə Samirin yanında olan Rəhim uzandığı yerdə qəfil ayağını çəkdiyindən sürüşüb aşağı düşdü. Samir "Rəhim" deyə-deyə ona sarı qa- çanda qəfil ermənilərin atdığı mərmi düşdü ortalığa, Samirin üzünü sıyırıb keçsə də, irəli yeriyirdi, sinəsində ağrı, qulağında cingilti, zülmlə Rəhimə köməyə yetdi. Bu zaman digər bir minamyot gəlib düşdü yanına, qırılan qaya parçası ayağını yerdən üzdü. Qalxmaq istəyəndə sinəsinin üstündə bir daşı gördü, səsi eşidiləcək vəziyyətdə deyildi. Minamyotların səsindən heç kim heç nə eşitmirdi.

Gərginlik, ağırlıq, düşmənə əsir düşməmək üçün çalışıb daşı üstündən saldı, ayağı ağır zədə almışdı, üstündəki bezlə dizdən yuxarı sıxıb bağladı, sürünə-sürünə yuxarı qalxdı...

Yüksəklikdə o biri tərəfdən də yetişən qrup birləşmişdi, XT-lıları görən ermənilər silahını atıb qaçmağa ça- lışırdı. Əlbəyaxa döyüş gedirdi, düşmən qüvvələrinin dağılmasına imkan verməyən XT-lılar onların atəş açdıqları nöqtələri də zərərsizləşdirirdilər...

Dəli Abbas meydanda nərə dönmüşdü, gözlərindən od yağırdı, düşmənin müqavimətini qıraraq, yüksəkliyi təmizləyib, düşmən bayrağını endirərkən düşmənin dəmirdən hazırladığı bayrağı Dəli Abbas sim kimi əyib yerindən qoparanda komandiri gülmək tutdu. Dəli Abbas bir əlində bayraq, digər əlini sinəsinə vuraraq dəli kimi bağırırdı:

- Çox şükür, Allah! Bu günü nə qədər gözləmişəm. Mənə qismət elədin, Allah!

Komandir gülə-gülə ona yaxınlaşdı:

- Şir kimi vuruşurdun. O ermənini gördüm necə da- ğıtdın. Sizə də, sənin qartallarım, vallah sizə də eşq olsun. Asın o bayrağı yerinə! - Abbasa sarı çevrildi. - Sənə Dəli Abbas deyəndə denən bu Dəli Abbas düşmən bayrağı sancılan dəmir məhəccəri əlləriylə muma döndərən, yerinə bayrağımızı dalğalandıran Abbasdır.

Komandirin gözü böyük bir canfəşanlıqla bayrağı dalğalandıran əsgərlərdə idi.

Abbas heç nə eşitmirdi. Abbasın yanar baxışlarına baxanda Abdulla kəndi, çayxananı, çayçı Məhərrəmin samovarının dızıltısını xatırladı. Yorğunluqdan, amma qələbənin verdiyi sevinc hissindən məmnun döyüşçülərlə birlikdə dalğalanan bayrağa baxan komandir qəfildən uca səslə bağırdı:

- Bu bayrağı düşmənin işğalında olan bütün torpaqlarda dalğalandıracağımıza and içirik.

- And içirik.

- And içirik...

Yerbəyerdən səslər ucaldı, dağlarda əks-səda verdi... Dəli Abbas özünü unutmuşdu, vüqarla bayrağa baxırdı.

***2025***